# Sabit, tərəqqi edən Azərbaycan sülhün tərəfdarı kimi çıxış edir

***Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın mayın 27-də Zəngilan rayonunda "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində iştirakları Qarabağ və Şərqi Zəngəzurun yenidən dirçəldilməsi, dünyanın ən abad, ən gözəl yaşayış məkanlarından birinə çevrilməsi baxımından xüsusi diqqət çəkir.***

Xatırladaq ki, dövlətimizin başçısı və birinci xanımın səfər çərçivəsində tanış olduqları Ağalı kənd meydanında otuz ilə yaxın müddətdə işğal altında qalan əzəli torpaqlarımızda sülhün əbədi gerçəkləşdirilməsini təcəssüm etdirən göyərçin abidə-fəvvarə kompleksi yaradılıb.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya fəvvarə işə salındıqdan sonra Dövlət Xidmətləri Mərkəzində fəaliyyət göstərəcək "Azərpoçt" MMC-nin rayon şöbəsi, "ASAN xidmət" mərkəzi, DOST mərkəzi, Kiçik və Orta Biznesin İnkişafı Mərkəzi haqqında məlumat verilib. Bu obyektlərin istifadəyə verilməsi ilə kənd sakinlərinin dövlət xidmətlərinə rahat çıxışının gerçəkləşəcəyi, "ASAN" və ya "DOST" xidmətlərinə müraciət üçün rayon mərkəzinə getmələrinə ehtiyac qalmayacağı bildirilib. Daha sonra bu mərkəzlərdə kənd sakinlərinə sosial təminat və məşğulluq sahəsində 100-dən çox xidmətin onlayn formada göstəriləcəyi qeyd edilib. Belə ki, vətəndaş tərəfindən birbaşa videobağlantı ilə "DOST" mərkəzlərinin sosial agentinə müraciət olunacağı deyilib.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya kənd situasiya mərkəzi barədə də məlumat verilərək, "ağıllı kənd" üçün "ağıllı həllər"in nəzərdə tutulduğu vurğulanıb. Bunun istismar xərclərinin azaldılması, yaşayış səviyyəsinin yüksəldilməsi məqsədi daşıdığı söylənilib. Eyni zamanda, Ağalı kəndində yüksək sürətli internet qurulduğu, onun sürətinin ölkə üzrə orta sürətdən dəfələrlə artıq olduğu diqqətə çatdırılıb.

Dövlətimizin başçısı və birinci xanım Ağalı kənd meydanında "Kapital Bank"ın Zəngilan filialı, kənd təsərrüfatı təyinatlı laboratoriyalar, baytarlıq və bitki mühafizə idarələri, habelə digər ictimai iaşə obyektləri ilə də tanış olublar.

Ağalı kəndində müasir şəhərsalma standartları tətbiq olunub. Küçələrin "ağıllı" işıqlandırılması, isti və soyuğa davamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, günəş panellərinin quraşdırılması kimi amillər yüksək səviyyədə reallaşdırılıb. Bütün bunlarla bərabər, kənddə "Gillmed" tikiş fabriki, ailə sağlamlıq mərkəzi (tibb məntəqəsi), uşaq bağçası və kənd orta məktəbi də yaradılıb.

Ağalıda yaşayan ailələrin sayının 200-dən çox olacağı planlaşdırılır. Kəndin genişləndirilməsi və əlavə 150 evin inşa edilməsi, o cümlədən ikimərtəbəli, üçmərtəbəli mənzil tipli binaların inşası da nəzərdə tutulur.

Yaşayış məntəqəsində sakinlərin rahatlığı üçün hər cür şərait nəzərə alınıb. Prezident İlham Əliyev kənd sakinləri ilə görüşündə dediyi kimi, "bir o qalıb ki, 30 ilə yaxın həsrət içində yaşayan insanlar gəlsinlər, burada rahat yaşasınlar, müzəffər xalq kimi əbədi yaşasınlar. Belə də olacaq. Bundan sonra həm Zəngilan rayonunda, həm digər rayonlarda, indi Baş planları təsdiq edilmiş rayonlarda inşaat işləri daha sürətlə gedəcək".

Ağalıda aqrar sektorun inkişafı məsələlərinə də xüsusi önəm verilib. Bununla bağlı "ağıllı kənd"də bir sıra yeniliklər tətbiq edilib. Məsələn, kəndin kənarında yerləşən böyük əkin sahəsində pilot sistemlər quraşdırılıb. Bu sistemlərlə 157 hektar sahənin suvarılması nəzərdə tutulub. Eyni zamanda, kənd ərazisində iqlim stansiyalarının da tikilməsi planlaşdırılıb. İqlim stansiyalarının əhəmiyyəti ondan ibarətdir ki, bu obyektlər vasitəsi ilə torpağın, havanın temperaturu, küləyin sürəti, havanın nəmliyi və digər məlumatlar elektron qaydada fermerlərə çatdırılacaq. Nəticə etibari ilə əkin sahəsində nəyə ehtiyac olduğu, hansı risklərin yarandığı anında müəyyənləşdirilərək, dərhal müdaxilə ediləcək.

Burada ən müasir kənd təsərrüfatı texnikaları da var. Həmin texnikalar vasitəsilə becərmə işlərini sürətli və səmərəli şəkildə aparmaq mümkündür.

Bundan başqa, kənd ərazisində yeni intensiv bağlar salınır, bağçılığın sürətli inkişafı üçün layihələr həyata keçirilir. Xarici investisiya hesabına kəndin kənarında camışçılıq ferması yaradılması nəzərdə tutulur. Dünyaca məşhur "Motsarella" pendiri hazırlanaraq bazara çıxarılması da planlaşdırılır.

Bir sözlə, Ağalı kəndində "Ağıllı kənd" konsepsiyasının hər üç komponenti – ağıllı dövlət idarəçiliyi, ağıllı infrastruktur və xidmətlər, eyni zamanda, ağıllı təsərrüfat və biznes mühiti yaradılıb.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağalı kəndinin sakinləri ilə görüşüblər.

> *Xalqımız artıq 30 ildir ki, azad xalq kimi yaşayır və bütün əldə edilmiş nəticələr, o cümlədən Şanlı Qələbəmiz bax bunun təməlindədir, bu müstəqilliyin təməlindədir. Ona görə müstəqillik ən böyük dəyərimizdir, sərvətimizdir, qoruyuruq və əbədi qoruyacağıq. Bu gün "Böyük Qayıdış" dediyimiz prosesə start verildi. "Böyük Qayıdış"ın birinci kiçik addımı, bax bu gün atılır.*
>
> ***İlham ƏLİYEV***
> ***Azərbaycan Respublikasının Prezidenti***



Dövlətimizin başçısı görüşdə çıxış edərək deyib: "Biz indi böyük işlərə start veririk, yaşayış evləri, məktəblər, xəstəxanalar – bütün bunlar hesablanmalıdır nə qədər adam yaşayacaq. Çünki böyük məsrəfdir. Mənə məlumat verildi ki, məcburi köçkünlərin mütləq əksəriyyəti qayıtmaq istəyir. Bu, məni çox sevindirdi. Mən belə də təxmin edirdim. Bu, bir daha göstərdi ki, xalqımız öz ulu babalarının yurduna nə qədər bağlıdır. Hətta Zəngilanı görməyənlər Zəngilanda yaşamaq istəyirlər. Necə ki, Vətən müharibəsində Qarabağı heç vaxt görməyənlər Qarabağ uğrunda ölümə getməyə hazır idilər və ölümə də getmişdilər. Üç minə yaxın şəhidimizin xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

Prezident İlham Əliyev görüşdə Qarabağ və Şərqi Zəngəzurda məskunlaşmanın planlı şəkildə reallaşdırılacağını, bununla bağlı artıq birinci layihənin uğurla icra edildiyini, Ağalı sakinləri üçün bu kənddə hər cür müasir şəraitin yaradıldığını xatırladaraq, Ağdam, Füzuli, Zəngilan və Şuşa şəhərlərinin Baş planlarının təsdiq olunduğunu və bu istiqamətdə layihələrin həyata keçirildiyini bildirib.

Ölkə rəhbəri hazırda Ağdamda yaşayış binalarının inşa edildiyini, Füzulidə də bu yöndə hazırlıq işlərinin həyata keçirildiyini və bütün bu tədbirlərin dövlət büdcəsi hesabına gerçəkləşdirildiyini, heç bir yerdən heç bir yardım alınmamasını, kredit götürülməməsini də vurğulayıb.

"Bu il də investisiya proqramı təsdiq olunub və proqrama əlavələr də ediləcək. Mən bu gün bunu bəyan etmək istəyirəm. Biz dövlət büdcəsinə əlavələr etməliyik, çünki iqtisadi göstəricilər daha yaxşıdır. Gəlirlərimiz nəzərdə tutulandan daha çoxdur. Ona görə biz bu əlavə gəlirləri və iqtisadi imkanlarımızı səfərbər etməliyik ki, vaxt itirmədən azad edilmiş torpaqlarda daha böyük həcmdə iş görək. İndi hökumətə tapşırılıb, yəqin yaxın gələcəkdə Milli Məclis bu məsələyə baxacaq ki, biz daha çox vəsait ayıraq. Mən demişəm, iqtisadiyyatımız nə qədər güclü inkişaf edərsə, biz azad edilmiş bütün əraziləri o qədər tez bərpa edəcəyik",-deyə ölkə rəhbəri xatırladıb.

Azərbaycan Prezidentinin çıxışında vurğulandığı kimi, ölkənin öz gücü ilə bütün bu layihələrin icrası heç də asan məsələ deyil. Çünki azad edilmiş ərazilərin miqyası çox genişdir, dörd Lüksemburqun ərazisi qədər, bir Livan ölkəsinə bərabərdir.



Bəli, belə bir geniş coğrafiyada ermənilərin yerlə bir etdiyi ərazilərdə yaşayış üçün hər cür şərait yaratmaq ancaq Azərbaycanın iqtisadi gücü hesabına reallaşdırılır. Amma düşmənin işğal dövründə və bu əraziləri tərk edərkən sahələri minalaması tikinti-quruculuq prosesinin gedişini zəiflədir, məskunlaşmanı ləngidir.

Prezident İlham Əliyev çıxışında Zəngilanın gələcəyi ilə bağlı da fikirlərini diqqətə çatdırıb. Dövlətimizin başçısı bu sahədə təcrübəsi olan beynəlxalq şirkət tərəfindən təqdim edilən şəhərin Baş planı ilə tanış olduğunu, Zəngilanın park şəhərinə çevriləcəyini, gözəl təbiətinin qorunmasının zəruriliyini diqqətə çatdıraraq, deyib: "Xüsusilə nəzərə alsaq ki, ermənilər Bəsitçay təbii qoruğunu da məhv etmişlər. O məşhur palıd ağaclarını da kəsmişlər, Oxçuçayı da zəhərləmişlər. Vejnəlidə də bizim qızıl yataqlarımızı istismar edərkən heç bir ekoloji normaya riayət etməmişlər. Biz təbiəti qorumalıyıq və Zəngilan şəhərinin artıq dünən Baş planı təsdiq olunandan sonra inşaat işləri başlanacaq".

Ölkə rəhbərinin Ağalı kənd sakinləri ilə görüşündə bildirilib ki, az müddət ərzində Zəngilanda dirçəliş, genişmiqyaslı bərpa-quruculuq hər bir sakində qürur hissi doğurur. İnsanların Vətən həsrətinə son qoyduğuna, Ağalı kəndində qısa zamanda belə bir nəhəng layihəni gerçəkləşdirdiyinə görə, Zəngilan əhalisi dövlət başçımızın hər zaman olduğu kimi, indi də siyasətini dəstəkləyir, bir yumruq kimi ətrafında birləşir.

Zəngilanda "Ağıllı kənd"in təməlinin qoyulması və bu gün artıq "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasiminin gerçəkləşdirilməsi təkcə Azərbaycan Respublikasında deyil, eyni zamanda, MDB ölkələrində də bir ilkdir.

Sakinlər Zəngilanda "Ağıllı kənd" kimi möhtəşəm bir layihənin uğurla reallaşdırıldığına, necə deyərlər, yoxdan var yaradıldığına görə, Prezident İlham Əliyevə dərin təşəkkürlərini çatdırıblar.

Prezident İlham Əliyev Zəngilan rayonunun Ağalı kəndində "Ağıllı kənd" layihəsinin açılışında çıxışı zamanı bir neçə tarixi məqama da toxunub. Dövlətimizin başçısı ölkəmizin müstəqillik qazanmasından 104 il ötdüyünü qeyd edərək, Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinin daim ehtiramla yad olunduğunu vurğulayıb.

Prezident İlham Əliyev XX əsrin sonlarında bərpa edilən müstəqilliyimizin möhkəm olmaması səbəbindən xalqımızın böyük faciələrlə üzləşdiyini bildirərək, həm Şərqi Zəngəzurun, həm də Qarabağın işğala məruz qaldığını xatırladıb. Eyni zamanda, o ovaxtkı səriştəsiz hakimiyyətin torpaqlarımızı qoruya bilmədiyini və xalqımızı ciddi problemlərlə üz-üzə qoyduğunu bildirib.

Ölkə rəhbəri nitqində, həmçinin Azərbaycanın əsl müstəqilliyinin xalqımızın 1993-cü ildə ulu öndər Heydər Əliyevə müraciətindən və onun hakimiyyətə gəlməsindən sonra başladığını, əsl müstəqilliyin müstəqil siyasət yürütməkdən ibarət olduğunu qeyd edib.

Həqiqətən də ulu öndərin belə bir müstəqil siyasəti nəticəsində Azərbaycan güclənib və Prezident İlham Əliyev tərəfindən həyata keçirilən düşünülmüş strategiya ilə ölkəmizin daha da qüdrətlənməsi gerçəkləşib.

Hazırda Azərbaycan dünyanın iqtisadi cəhətdən ən müstəqil ölkələrindən biridir. Müasir dünyada belə ölkələrin sayı o qədər də çox deyil. Ancaq Azərbaycan tam müstəqildir və heç bir yardıma, kreditə ehtiyac duymur. Bu amil ölkəmizin güclü iqtisadiyyata malik dövlət olduğunu deməyə əsas verir.

Dövlətimizin başçısı çıxışında bu gün dünyada güc amilinin önə çəkildiyini bir daha qeyd edərək, daha qüdrətli olmağın vacibliyini vurğulayıb. Buna görə də Prezident İlham Əliyev Azərbaycanın hərbi potensialının artırılmasını dövlətimizin prioritet istiqamətlərindən biri kimi qarşıya qoyub. Müharibədən sonra yeni silahlı birləşmələrin yaradılması və yeni texnikaların alınması bu məqsədlərə xidmət edib. Azərbaycanın hərbi gücünü artırması müdafiə və təhdidlərdən qorunmaq məqsədi daşıyıb. Çünki Azərbaycan sabit, təhlükəsiz diyar kimi hər zaman sülhün tərəfdarı kimi çıxış edib.

Sonda bir məsələni də qeyd edək. Belə ki, Prezident İlham Əliyev Zəngilandan işğalçı ölkəyə mesajlarını da ünvanlamağı unutmayıb: "Ermənistanda faşistlər baş qaldırmağa cəhd göstərirlər. Onlara elə gəlir ki, əgər hakimiyyətdə olsaydılar, müharibənin nəticələri başqa cür ola bilərdi. Qətiyyən yox! Onlara elə gəlir ki, əgər hakimiyyətə gəlsələr, nə isə əldə edə bilərlər. Qətiyyən yox! Əksinə, əgər istəmirlərsə ki, onların başı bir daha əzilsin, otursunlar və bu tərəfə heç baxmasınlar. Biz hələ ki, səbirlə bu mənzərəni izləyirik. Amma bunu Ermənistan faşistləri bilsinlər ki, hər an onların dərsini verməyə bir daha hazırıq. Necə ki, İkinci Qarabağ müharibəsi zamanı bu dərsi verdik".

Beləliklə, bu gün Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa-quruculuq işləri sürətlə aparılır, respublikamız postmünaqişə dövrünün gündəliyini formalaşdırır və dünya gücləri bu reallıqları qəbul edir. "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimi kimi tədbirlər isə ölkəmizin güc-qüdrətini nümayiş etdirməklə bərabər, həm də Azərbaycanın həyatında yeni səhifə açır. Bu, respublikamızın dünyaya, regiona sülh çağırışları fonunda qurub-yaratmaq əzmindən xəbər verir.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***